Yeganə Rəhimzadə

# ÇİNGIZ AYTMATOVUN "MANQURT"ƏSƏRİNDƏ FASİLƏLİ OXU METODUNUN TƏTBİQİ

Respublikamızda təhsil sistemi getdikcə inkişaf edir.İnkişaf zamanı digər ölkələrin təcrübəsindən, ayrı-ayrı müəllimlərin pedoqoji biliyindən, əvvəlki zamanlarda yazılmış metodik vəsait və dərsliklərdən də istifadə olunur.Təhsil sistemində aparılan islahatlar gələcəyə savadlı vətəndaşların yetişdirilməsini ön plna çəkir.Azərbaycanda təhsil sistemi artıq tələbyönümlü formalaşır.Belə təhsil sisteminin formalaşmasında humansitləşmə,inteqrasiya,differensiallaşdırma,fərdiləşmə və s kimi pirinsiplər əsas meyar kimi götürülür.Bütün bu pirinsiplər təhsilin məqsədyönlü və planlı aparılmsını tələb edir.Kurikulum islahatları bu tələblərə cavab verən əsas istiqamətlərdəndir.

Bəs kurikulum hansı xüsusiyyətləri ilə seçilir?Kurikulum necə hazırlanır?Kurikulumun əsas xüsusiyyəti ondan ibarətdir ki,o özündə təhsilin məzmununu,stategiyasını,qiymətləndirmə mexanizmini əks etdirir.Avropa ölkələrində kurikulum hazırlanmasında xüsusi dövlət qurumları iştirak edir.Azərbaycanda isə kurikulum hazırlnarkən Kurikulum mərkəzi qurulmuş,işinin peşəkarları olan insanlar bu quruma daxil olunmuşdur.Qeyd etməliyik ki, bu təhsil konsepsiyasının hazırlanması müzakirələrə səbəb olan,vaxt tələb edən bir prosesdir.Fənn kurikulumlarıda milli kurikulumun bir hissəsidir ki,ayrı-ayrı fənnlər üzrə məzmun,stategiya,qiymətləndirməni özündə birləşdirir.Eyni zamanda fənn kurikulumları ayrı-ayrı fənnlər üzrə şagirdlərə bilik,bacarıq və vərdişlərin aşılanmasını ,bununla yanaşı şagirdlərin dərsə marağının artmasınıda təmin edir.Fənn kurikulumları öz məqsədini ədəbiyyat fənnində aydın ifadə edir.Belə ki,fikirlərin aydın,ardıcıl ifadəsi,nitq vərdişlərinə yiyələnmə,müstəqil təhlil bacarıqları və s məhz ədəbiyyat fənninin məzmununda öz əksini tapır.Ədəbiyyat fənn kurikulumu şəxsiyyətyönümlülük pirinsipini əsas götürərək,şagirdlərin maraqlarını,onların tərbiyəsini,gələcəkdə ziyalı insanın formalaşmasını təmin edən şəraitin qurulmasınına əsas verir.Məzmun xətləri yuxarıda saydığımız məqsədləri yerinə yetirmək üçün əsas vasitədir.Ədəbiyyat fənn kurikulumununda məqsədinə və vəzifələrinə uyğun məzmun xətləri müəyyənləşmişdir.

Ədəbiyyat və həyat həqiqətləri; Şifahi nitq; Yazılı nitq.

Bu məzmun xətləri oxu prosesində reallaşır.Bildiyimiz kimi,şərqdə xüsusilə Azərbaycanda istər qədim və orta əsrlərdə,istərsədə müasir dövrdə uşaqların oxumasına,onların təhsilinə önəm verilmişdir.Bu mənada müxtəlif kitablar yazılmış,dövrünün mütəfəkkir alimləri xeyli işlər görmüşlər.Körpəlikdən ana laylası ilə,nağıllarla,dastanlarla,böyüyən uşaq,yetkin yaşına çatanda belə onlardan əl çəkmir.,daim oxuyub inkişaf edir.Bütün bunlar ədəbiyyatın,bədii əsərlərin oxusunun insan üzərində əvəzedilməz təsirinin nəticəsidir desək yanılmarıq.Ədəbiyyatın oxusu insanların həyatına,onların arzu və istəklərinə təsir edir,onları formalaşdırır.Bunu da qeyd etməliyik ki,ədəbiyyatın bizim xalqımız üzərində təsiri daha dərindir.

Oxu şagirdlərin nitqini inkişaf etdirməklə yanaşı,onları sərbəst və tənqidi düşünməyə sövq edir.Məhz buna görə də,ədəbiyyat müəllimi bütün bu faktları nəzərə alaraq,əsərin oxusuna,onun şagirdlər tərəfindən mənimsədilməsinə fikir verməlidir.Təcrübə göstərir ki,şagirdlər mətnləri şifahi şəkildə şərh edərkən,yada əsərdəki surətlər haqqında öz fikirlərini çatdırarkən çətinlik çəkirlər.Buda az mütaliədən,şifahi nitqin inkişaf etməməsindən irəli gəlir.Şagirdlər bu problemlə ilk mərhələdə qarşılaşırlar.Sonrakı addimları isə daha uğurlun olur.Buda onların getdikcə daha çox mütaliə etmələrindən irəli gəlir. Mətnin mənimsədilməsi ilə bağlı ayrı-ayrı şagirdlərdə mənimsəmədə fərqli olur.Onların bəziləri məzmunu danışmaqda çətinlik çəkir,bəziləri məzmunu danışa bilsələrdə hiss və emosiyyalarını müşahidə etmək olmur,bəziləri isə məzmunu şərh edən zaman yazıçının nə demək istədiyini yaxşı anladıqlarını gözlənilir.Buda tamamilə mətnin oxusu ilə əlaqədardır.Yuxarıda qeyd olunan bu problemləri aradan qaldırmaq üçün mətnin oxusu təşkil olunan zaman fasiləli oxu metodundn istifadə etmək məqsədə uyğundur.Bu metod şagirdləri düşünərkən oxumağa sövq edir.Xüsusilə nəsr əsərlərinin mənimsədilməsi zamanı bu metod istifadə olunur.

Bədii əsər yazıçı ilə oxucu arasında bir əlaqə vasitəsidir ki,yazıçının çatdırmaq isdədiyi ideya məhz bədii əsər vasitəsilə oxucuya çatdırılır. "Manqut"hekayəsi qırğız yazıçısı Çingiz Aytmatovun "Gün var əsrə bərabər"romanından ixtisarla verilmiş bir parçadır.Hekayenin ideyası bir çox mənəvi keyfiyyətləri aşıladığı kimi,şagirdlərə düşünməyidə öyrədir.Uzaq keçmişə müraciət edən yazıçı oxucuya vətən sevgisi,ana-övlad münasibəti,insanın kimliyini ona çatdıran,anladan gözəl əsər yazmışdır.Qeyd etməliyik ki,əsər təkcə Qırğızıstanda deyil,başqa ölkələrdə də maraqla qarşılanmışdır. Bəs Manqurt nədir?-Öz kimliyini,hardan gəldiyini,həyatdakı məqsədini bilməyən,xatırlamayan bir zavallıdır,bir kölədir.Əvvəldə demişdik ki,hər bir ədəbi əsər yazıçı ilə oxucu arasında bir əlaqədir.Çünki,yazıçının çatdırmaq isdədiyi həmin ideya,məna həmin əsərdə çatdırılır.Çingiz Aytmatov bu əlaqədən lazımınca istifadə etmişdir.Düşünmək lazımdır ki,doğurdanda öz kimliyini bilməyən,birisi elə manqurtun özü deyilmi?Bunun üçün mütləqdirmi ki,başına dəvə dərisi keçirilsin və ya qızğın çöllərə atılsın?Əsərdə bir hissə diqqəti cəlb edir.Nayman ananın sözləri...

-Yadına sal sən kimsən?Adın nədir?-adi görünən cümlələrin altında necə dərin məna vardır.Çingiz Aytmatov fikirlərini necə gözəl çatdırmışdır.Özündə müharibə,ana-övlad,vətən,millət və s kimi ideyaları birləşdirən bu əsərin şagirdlərə düzgün çatdırılması olduqca vacibdir.

"Manqurt" hekayəsinin mənimsədilməsi ilk öncə əsərin oxusu ilə başlanır.Əsərlərin oxusu zamanı bir çox metodlardan istifadə olunur.Bu metodlara fasiləli oxunu,proqnazlaşdırılmış oxunu misal göstərmək olar.Bu metodlar əsərin ideya və məzmununun şagirdlərə mənimsədilməsində böyük rol oynayır.

Dərsin ilk mərhələsində müəllim şagirdlərə -Vətənimizin,xalqımızın tarixini əks etdirən hansı əsərləri taniyirsınız?- kimi sualı kimi sualla müraciət edə bilər.Şagirdlərin cavabları alındıqdan sonra onlarda oxuyacağı hekayə ilə bağlı anlayış yaranır,əsərdə nədən bəhs olunacağı haqda onlarda ilkin fikir formalaşır.Müəllim oxunulcaq hekayənin adını,müəllifi şagirdlərlə tanış edir.Daha sonra əsər hissələrə bölünərək oxunur.Oxu zamanı Manqurtun nə

demək olduğu,buraya necə gəldiyi, başına nələr gəldiyi haqqında öyrənirlər.Onlarda ilkin təsəvvürlər yaranır. Müəllim bu mərhələdən sonra aşağıdakı suallarla şagirdlərə müraciət edir:

1.Oxuduğunuz parçada nədən danışılır?
2.Manqurt kim idi?
3.Digər qullardan nə ilə fərqlənirdi?
4.Onu bu hala gətirən juanjuanlar barəsində nə düşünürsünüz?
5.Manqurtun başına gələnlər sizdə hansı hissləri oyatdı?

Sualların sayı müəllimdən asılı olaraq arta və ya azala bilər.Eyni zamanda suallar mövzudan və müəllimdən asılı olaraqdəyişilə bilər.Sualların qoyuluşu müəllimin pedaqoji təcrübəsindəndə asılıdır.Suallar elə qoyulmalıdır ki,həm digər hissəylə əlaqələnsin,həm şagirdlərdə maraq yaratsın,həmdə onları düşündürsün.Suallar cavablandırıldıqdan sonra əsərin ikinci hissəsi oxunur.Bu hissədə şagirdlər Nayman ana ilə tanış olurlar.Sövdəgərlərin Manqurtu görməyi,onun haqqında təssüflə danışmaqları,onu axtarmaq üçün yola çıxmağı,ananın yaşadığı hisslər şagirdlərə dərindən təsir edir.İkinci hissənin kuliminasiyası ananın oğlunu tapması və manqurtun laqeydsiz baxışları olur.Əsərin oxusu yenidən bu hissədə dayandırılır.Müəllim bu fasilədə yenidən suallar verir:

1.İşin davamı haqqında nə düşünürsünüz?
2.Sizcə Nayman ana bu görüşmədən sonra nə edəcək?
3.Manqurtun hərəkətləri barəsində nə düşünürsünüz?
4.Sizcə Manqurt kimliyini xatırlaya biləcəkmi?

Suallar rəngarəng olduğu kimi cavablarda rəngarəng olacaqdır.Çünki hər uşağın düşüncəsində müxtəlif hisslər yaranır. Onların bəziləri Nayman ananın hərəkətlərini,oğlunu tapmaq ümidini boş saya bilər,bəzisi tapa biləcəyinə inanmayacaq,bəziləri Manqurtun öz kimliyini xatırlayacagını iddia edəcəklər,bəziləri isə ananın boşuna cabaladığı fikrinə düşəcəklər.Tamam yeni fikirlərdə söylənilə bilər.Suallar cavablandıqdan sonra əsərin üçüncü hissəsinin oxusu başlanılır.Burada isə artıq ananın oğlunu aparmaq,qərarına gəlməyini,onun xatırlatmaq üçün əlindən gələni etməyi,hər gün onu görməyə gəlməyi,manqurtun laqeydsizliyi,ananın laylası,bu laylanın manqurtun xoşuna gəlməsi,juanjuanların bundan xəbər tutması və finalda ananın ölümü ilə rastlaşması ilə qarşılaşırıq.Əminliklə demək olar ki,əsər hər bir şagirdə böyük təsir edəcəkdir.Əsərin üçüncü hissəsinin oxusu yekunlaşdıqdan sonra müəllim yenidən suallar verir.

1.Sizcə Nayman ana niyə bu qədər inadkarlıq edirdi?
2.Əsərin sonunun belə olacağını gözləyirdinizmi?
3.Sizcə layla Manqurta təsir edə bildimi,və səbəbi nə idi?
4.Nayman ananin yaşadıqları sizdə hansı hissləri oyatdı?
5.Müharibələr və əsirlər haqqında nə düşünürsünüz?

Qəbul olunmalıdır ki,əsər şagirdlərdə mənəvi hisslər formalaşdırır.Sonda cavablar dinlənilir,təəssüratlar dinlənilir.

**Ədəbiyyat:**


1. Azərbaycan dili və Ədəbiyyatı tədrisi(N-2 ) Bakı-2015
2. Azərbaycan dili və Ədəbiyyatı tədrisi(N-1) Bakı-2008
3. Hüseynoğlu S-Ədəbiyyat dərslərində ifadəli oxu. Bakı-2012
4. Hüseynoğlu S, Həsənli B, Mustafayeva A, Məmmədova S. -7-ci sinif üçün dərslik.Bakı, Bakınəşr,2014
5. Həsənli B, Hüseynoğlu S, Mustafayeva A. - Müəllim üçün metodik vəsait.7-ci sinif üçün. Bakı, Bakınəşr,2014
6. Veysova Z- "Ümumi orta təhsil səviyyəsi üzrə yeni fənn kurikulumlarının tətbiqi",Bakı-2015
7.Yusifov F-Ədəbiyyatın tədrisi metodikası , Bakı, ADPU-nun nəşri, 2010.



**Açar sözlər**: təhsil sistemi, kurikulum ,oxu, "Manqut"əsəri, "Manqurt"da fasiləli oxu.
Key words: the education system,curriculm,read,"Mankurt"work, in "Mankurt"read intermittently.
Ключевые: Система образования, курикулум, чтение, произведение "Мангурт",чтение с перерывом.



## XÜLASƏ:

Fasiləli oxu metodu ilə hazırlanmış mətnin oxusu şagirdlərin təfəkkürünə, onların düşüncələrinə təsiri araşdırılmış və rolu öyrənilmişdir. Bundan əlavə kurikulum,kurikulumun təhsil sistemində yeri haqqında danışılmışdır.Bununla yanaşı mətnin mənimsədilməsi zamanı istifadə olunan yeni təlim texnologiyalarınada toxunulmuşdur.

## SUMMARY:

Continously reading of the text prepared by the method of reading the students thinking, and their thoughts on the role of the effect was investigated and studiet. In addition, the curriculum, the curriculum were discussed about the location of the education system. In addition, new training technologies used in mastering the spoken text.

## РЕЗЮМЕ:

Обследовона было воздействие и роль на мышление и на умственное развитие учеников текста подготовленного методом перерывнще чтения. Кроме этого было рассказано о курикулме и о значение курикулума в системе обучению. Рядом с этим,было затроното о новых учебных технологиях исползованные в обучение текста .


**RƏYÇİ: dos. S.Abbasova**